# Azərbaycan təhsili müstəqillik yollarında

***❒ Ölkəmiz öz dövlətçilik tarixinin çox şərəfli bir dövrünü yaşayır. 1991-ci ildə ikinci dəfə öz müstəqilliyinə qovuşan Azərbaycanı Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra üzləşdiyi bəlalardan xilas etdi, ölkəmizi davamlı islahatlar yoluna çıxardı.***





Artıq 28 ildir ki, Azərbaycan müstəqillik yollarında inamla addımlayır. Söz yox ki, qazanılmış uğurlar ulu öndərin ölməz ideyalarından güc alır. Heydər Əliyev deyirdi: "Müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da böyük nailiyyətdir, ondan da çətin bir işdir". Bu çətin və məsuliyyətli işi öz çiyinlərində irəliyə doğru aparan ulu öndər dəfələrlə bildirmişdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir.

Müstəqilliyin ilk illərində Azərbaycan ciddi sınaqlarla qarşılaşdı. Ölkədə təhsil müəssisələrinin maddi-texniki bazasının dağılması tendensiyası hökm sürürdü, dərsliklərin şagirdlərə pulsuz verilməsi dayandırılmışdı, uşaqların icbari təhsilə cəlb olunması səviyyəsi aşağı düşmüşdü. Dağlıq Qarabağ və ətraf rayonların işğalı nəticəsində 220 körpələr evi, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar təhsil müəssisəsi, 11 peşə məktəbi, 9 orta ixtisas məktəbi, 1 ali məktəb, 3 ali məktəb filialı dağıdılmışdı.

Ulu öndərin böyük səyi nəticəsində 1994-cü il mayın 12-də atəşkəs elan edildi və ölkədə siyasi sabitliyin bərpası və iqtisadiyyatın dirçəlişi istiqamətində müəyyən addımlar atıldı.

1992-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) yaradıldı, 1992–1993-cü tədris ilində TQDK tərəfindən ali məktəblərə ilk tələbə qəbulu keçirildi. Müstəqilliyin ilk illərində bu istiqamətdə ciddi çətinliklər olsa da, ümummilli lider Heydər Əliyevin diqqəti və qayğısı nəticəsində bu proses daha da təkmilləşdirildi, qaydalarda əsaslı dəyişikliklər edildi.

1993–1994-cü tədris ilindən ali təhsildə 4 illik bakalavriatura və 2 illik magistratura sisteminə keçildi. 1997-ci ildə bakalavriaturanın ilk buraxılışı oldu, eyni zamanda, həmin il ilk dəfə olaraq magistr hazırlığına başlandı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkədə ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi istiqamətində əsaslı addımlar atıldı, bir sıra ali təhsil müəssisələri yenidən quruldu və universitet statusu aldı.

Müstəqilliyimizin ilk illərində təhsil sistemində yeniliklərdən biri də özəl təhsil müəssisələrinin yaranması oldu.

Heydər Əliyev 1998-ci ildə ölkəmizdə təhsil sistemində islahatlar aparılmasına dair xüsusi sərəncam imzaladı. Çox qısa müddət ərzində “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” hazırlandı və 1999-cu il iyunun 15-də ölkə başçısı tərəfindən təsdiq edildi. Proqramda mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. İslahatların başlaması mıllı təhsilin inkişafına güclü stimul verdi.

Möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər çağdaş təhsilimizin tarixində yüksək inkişaf, bütün sahələrdə islahatların daha da dərinləşməsi, təhsilin elmi əsaslara söykənən dövlət proqramları vasitəsilə idarə olunması dövrü kimi xarakterizə olunur.

Təhsil sahəsinə maliyyə qoyuluşunun ilbəil artması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. Təsadüfi deyildir ki, möhtərəm Prezidentin vurğuladığı “Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik”, “Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir” kimi konseptual müddəaların əsasında da məhz həmin yanaşma dayanır. Bu mənada “təhsil əsri” elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Təhsilin ayrı-ayrı sahələrinin inkişafı üzrə ötən dövr ərzində 25-dən artıq dövlət proqramı qəbul olunmuşdur.

Son illər Azərbaycanda 3 min 200-dən çox yeni məktəb binasının tikilməsi, əsaslı təmiri və müasir avadanlıqlarla, o cümlədən kimya və fizika laboratoriyaları ilə təmin edilməsi, bütün məktəblərdə kompüter siniflərinin yaradılması təhsil tariximizdə ən əlamətdar hadisələrdəndir. Sovet İttifaqının mövcud olduğu 70 il ərzində ümumilkdə bu qədər məktəb tikilməmişdir.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində 2004-cü ildə təsis edilmiş Heydər Əliyev Fondunun müstəsna xidmətləri xüsusilə qeyd edilməlidir. “Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramı çərçivəsində xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum, müəyyən mənada cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsil aldığı 30-dan çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edilərək yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar inşa edilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində yeni məktəblərin tikintisi uğurla davam etdirilmişdir.

Təhsilin yeni məzmunu yeni nəsil dərsliklərin hazırlanmasını zəruri etmişdi. Müstəqillik illərində milli-mənəvi dəyərlər əsasında müasir tələblərə uyğun məzmunda ümumilikdə 80 milyon çox dərslik çap edilib.

2008-ci ildən başlayaraq, ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu sahəsində beynəlxalq təcrübəyə uyğun yeni mexanizmlərin tətbiqinə başlanılmış, 2011-ci ildə ölkə səviyyəsini əhatə etmişdir. Son 3 ildə ümumtəhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə qaydalar obyektivlik və şəffaflıq baxımından daha da təkmilləşdirilmişdir.

Müəllimlik peşəsinin ictimai nüfuzunun yüksəldilməsi, yüksək bilikli və hazırlıqlı insanların bu peşəni seçməsinə stimul yaradılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüşdür. Müəllimlərin əməkhaqqı mütəmadi olaraq artırılır.

Ali təhsilin inkişafı sahəsində əhəmiyyətli addımlar atılmışdır. 2005-ci ildə Azərbaycan Bolonya prosesinə qoşulmuş, Avropa təhsil məkanına inteqrasiya istiqamətində tədbirlər həyata keçirilmişdir. Ali təhsil müəssisələrinin infrastrukturunun inkişafı sahəsində əhəmiyyətli işlər görülmüş, bütün universitetlərin maddi-texniki bazası əsaslı şəkildə yeniləşdirilmişdir. “2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın icrası istiqamətində ölkə Prezidenti tərəfindən 10 fevral 2010-cu il tarixli “Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə” fərman imzalanmışdır. Həmin fərmana əsasən, 2010–2011-ci tədris ilindən başlayaraq, ali təhsil müəssisələrində adambaşına maliyyələşdirmə prinsipinin tətbiqinə başlanmışdır.

Son illərdə ölkəmizdə “ADA” Universiteti, Ali Neft Məktəbi kimi yeni ali təhsil müəssisələri yaradılmış, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılmış, ali təhsil müəssisələrinin şəbəkəsi genişləndirilməklə əhalinin ali təhsil almaq imkanları artırılmışdır.

Müəllim hazırlığı sistemində yeni yanaşmaların tətbiqi, bu sahədə pərakəndəliyin aradan qaldırılması və səmərəli idarəetmənin təmin edilməsi istiqamətində institusional dəyişikliklər davam etdirilmiş, beynəlxalq tələblərə uyğun məzmunca yeni təhsil proqramlarının hazırlanması işinə başlanılmışdır. Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulmuş, Müəllimlər İnstitutunun Sumqayıt, Salyan, Mingəçevir filialları ləğv edilmişdir. Regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq, yeni istehsalat və xidmət sahələrinin ixtisaslı kadrlara ehtiyacını təmin etmək məqsədilə Qazaxda Bakı Dövlət Universitetinin, Zaqatalada isə Azərbaycan Dövlət İqtisad Universitetinin filialları təsis olunmuşdur. Cari tədris ilində Azərbaycan–Fransız Universiteti (UFAZ) ilk tələbələrini qəbul etmişdir.

Son illər ölkəmizdə xarici dildə tədris aparan ali təhsil müəssisələrinin və burada təhsil alan gənclərimizin sayı artmışdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş istedadlı gənclərin ən aparıcı ali məktəblərə təhsil almağa göndərilməsi ənənələri indi də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə “2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təsdiq edilib həyata keçirilmişdir.

Müstəqilliyin ilk illərində dünyanın bəzi ölkələri ilə təhsil sahəsində yaradılmış əməkdaşlıq sonrakı dövrdə xeyli genişlənmişdir. Hazırda 30-dan çox dövlətlə təhsil əlaqələri yaradılmışdır. Bu əlaqələrin yaradılmasında Bakı Slavyan Universitetinin xüsusi rolu vardır.

Ölkəmizdə informasiya cəmiyyətinin qurulmasının və biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə tələbatını nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli 13 nömrəli sərəncamı ilə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təsdiq edilmişdir.

Müstəqil Azərbaycanın təhsil sistemində irimiqyaslı islahatlar prosesi artıq dönməz xarakter almışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin təhsilə diqqət və qayğısı sayəsində milli təhsil sisteminin aydın sabahını təmin edəcək layihələr reallaşdırılmaqda, Azərbaycan təhsilinin davamlı inkişafına yönəlmiş əsaslı tədbirlər görülməkdədir.




***Rafiq NOVRUZOV,***
***Bakı Slavyan Universitetinin prorektoru, professor***